

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 69 (23.956)

*15 aprel 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

`Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Albaniyanın Baş naziri Edi Rama ilə təkbətək görüşü olub.

Prezident İlham Əliyev bildirib ki, bu səfər ikitərəfli əlaqələrə yeni təkan verəcəkdir. İkitərəfli münasibətlərə gəldikdə, əlbəttə ki, ticarət dövriyyəsinin artırılması üzərində çalışılmalıdır. Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan Avropaya təbii qazın ixracatçısına çevrilib və Albaniya hər zaman bu təşəbbüsü dəstəkləyib. Ölkənizin yüksək səviyyəli nümayəndələri Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclaslarında hər zaman iştirak ediblər. Bu gün Cənub Qaz Dəhlizi və xüsusilə də Trans-Adriatik boru kəmərinin əhəmiyyəti daha qabarıq görünür. Bu görüş isə, ümumilikdə, tərəfdaşlığa daha geniş mənada nəzər salmaq və gələcəkdə yaxşı nəticələr əldə etmək baxımından təkan vermək üçün yaxşı fürsətdir.

Baş nazir Edi Rama əməkdaşlığın artırılması potensialına malik sahələr olduğunu, heyətlərin bu sahədə müzakirələr apardığını diqqətə çatdırıb, yüksək qonaqpərvərliyə görə təşəkkür edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyanın Baş naziri Edi Rama ilə işçi naharı olub.



*Ölkəmizdə təhsilin inkişafı sahəsində yaranmış ənənələrin milli məqsədlərlə yönəldilməsi, bu ənənələrin müasir dövrün tələbləri səviyyəsində inkişafı müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. **"Bizim gördüyümüz işlər, təhsil sahəsində həyata keçirdiyimiz islahatlar Azərbaycan dövlətini daha da yüksəltməyə yönəldilibdir"**, – deyən görkəmli dövlət xadiminin ötən əsrin 70-ci illərində müəyyənləşdirdiyi təhsil strategiyası ölkəmizdə bu sahənin davamlı inkişafının təməlini yaradıb, müstəqillik illərində isə təhsillə bağlı daha geniş islahatlar həyata keçirilib, Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub.*

### *Təhsil millətin gələcəyidir*

## Elm davamlı inkişafdır

## *Bu inkişafla ayaqlaşmaq isə günün tələbidir*

Elm olmayan yerdə ixtisaslı kadrlar da, inkişaf da və deməli, gələcək də olmayacaq. Elmə doğru gedən yol isə təhsildən keçir. Görkəmli şəxsiyyət Heydər Əliyevin elm və təhsil sahəsinə göstərdiyi diqqət və qayğı bu gün Prezident cənab İlham Əliyev tərəfindən əzmlə davam etdirilir. Azərbaycanda gənc nəslin elm və təhsilə cəlb olunması üçün dövlət tərəfindən mühüm addımlar atılır, hər il dövlət büdcəsindən bu sahələrə milyonlarla manat vəsait ayrılır.




Dövlətimizin başçısının qarşıya qoyduğu ən mühüm vəzifələr sırasında sosial-iqtisadi inkişafın innovativ və kreativ vasitələrlə sürətləndirilməsi də mühüm yer tutur. İnnovasiya proseslərinin intensivliyinin artırılması hazırda qlobal iqtisadi sistemdə baş verən dəyişikliklərin mühüm istiqamətlərindəndir. Bu mənada, tədqiqat və sənaye qurumları ilə əməkdaşlıq edən və innovativ inkişaf sisteminə malik təhsil müəssisələri cəmiyyətimizin təhsil və elm sahəsində yüksəkixtisaslı kadrlara olan ehtiyacını təmin etməklə yanaşı, sosial ehtiyacların ödənilməsi missiyasını da öz üzərlərinə götürür.

Əlbəttə ki, bu missiyanın yerinə yetirilməsində əlverişli "öyrənmə-öyrətmə" mühiti ilə yanaşı, çevik qərarlar qəbul edə bilən istedadlı mütəxəssislərin, xüsusilə də gənc nəslin olması vacibdir. Məhz belə təhsil müəssisələrində elmi araşdırmalar və innovasiyalar təhsil prosesinin ayrılmaz tərkib hissəsinə çevrilir, əmək bazarında yüksəkixtisaslı mütəxəssislər hazırlanır, nəticəsi nüfuzlu elmi nəşrlərdə dərc olunan və prioritet istiqamətlərdə elmi tədqiqatlar aparılır və patentlərin lisenziyalaşdırılması yolu ilə elmi-tədqiqat yönümlü yeni texnologiyaların inkişafına mühüm töhfə verilir.

Ölkəmizin ən nüfuzlu ali təhsil ocaqlarından biri olan Naxçıvan Dövlət Universiteti də Azərbaycan dövlətinin elm, təhsil və gənclər siyasətinə öz məxsusi töhfəsini verməkdədir. Ali təhsil müəssisəsinin rəhbərliyi və professor-müəllim heyətinin ümdə məqsədi gənclərin savadlı, dərin bilikli və bacarıqlı, geniş dünyagörüşə malik, vətənpərvər və dövlətçilik ənənələrinə sadiq vətəndaş kimi formalaşdırılması, Azərbaycanın parlaq gələcəyini təmin edə biləcək yüksəkixtisaslı peşəkar kadrlar yetişdirməklə ölkəmizin intellektual insan kapitalını zənginləşdirməkdir.

Davamlı sosial-iqtisadi inkişafın əsasında olan təhsilin və elmi-texniki tərəqqinin rolunu düzgün qiymətləndirərək diyarımızda elm siyasətinin əsasını qoyan ümummilli lider Heydər Əliyevin kursunu uğurla davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov son illər muxtar respublikada elmin inkişafı, elmi-texniki potensialın modernləşdirilməsi, elm və təhsil sahəsində yüksəkixtisaslı kadrların hazırlanması, onlara daim qayğı göstərilməsi, cəmiyyətdə elm və təhsil işçilərinin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarlar qəbul etmişdir. Hazırda elm və təhsilin əlaqələndirilməsi, bir-biri ilə inteqrasiya olunmuş şəkildə, müasir texnologiya və innovasiyaların tətbiq edilməsi yolu ilə inkişaf etdirilməsi ən prioritet məsələdir. Bu gün Naxçıvanda məhz bu istiqamətləri əhatə edən dövlət siyasəti aparılır – iqtisadi potensialı intellekt kapitalına çevirmək sahəsində mühüm işlər görülür. Bu sahədə həyata keçirilən məqsədyönlü islahatların nəticəsidir ki, Naxçıvan Dövlət Universiteti özünün maddi-texniki və təşkilati strukturuna görə ən qabaqcıl ali təhsil müəssisəsinə çevrilərək bu gün elm-təhsil-innovasiya sahəsində beynəlxalq təcrübəni tətbiq imkanı qazanmışdır. Məlum həqiqətdir ki, elm biliyə, savada əsaslanır. Ulu öndərin müəyyənləşdirdiyi təhsil siyasətinin muxtar respublikada uğurla həyata keçirilməsinin nəticəsidir ki, bu gün artıq Azərbaycan elminin mükəmməl təşkilati strukturu formalaşıb, elmi araşdırmaların həyata keçirilməsi sistemli xarakter alıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında" 2019-cu il 7 sentyabr tarixli Sərəncamı ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş və uğurla həyata keçirilən elm siyasətinə xüsusi əhəmiyyət verilməsinin və muxtar respublikanın hərtərəfli və dinamik inkişafında bu sahənin də formalaşmasına qayğının ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında" 2020-ci il 14 dekabr tarixli Sərəncamı bu baxımdan ali təhsil müəssisəsinin imkanlarını daha da genişləndirməklə yanaşı, beynəlxalq rəqabətqabiliyyətliliyin təmin olunması, innovativ layihələrin dəstəklənməsi və keyfiyyətli kadr hazırlığına son dərəcə böyük təsir imkanları yaradacaqdır. Tədris prosesinin elmi tədqiqatla əlaqələndirilməsi, innovativ istiqamətlərin inkişaf etdirilməsi, elm və təhsilin istehsalatla inteqrasiyasının gücləndirilməsi, tələbə, magistrant və doktorantlarda tədqiqatçılıq və peşə fəaliyyəti üçün zəruri olan praktik bilik, bacarıq və vərdişlərin formalaşdırılması, müxtəlif elm sahələrində elmi yeniliklərin və innovasiyaların tədris prosesinə tətbiqi, müvafiq ixtisas sahələri üzrə aparıcı mütəxəssislərin tədris prosesinə cəlb edilməsi və birgə elmi tədqiqatların aparılması istiqamətində yeni mərkəzlər, şöbələr yaradılmış, müasirtipli laboratoriyalar fəaliyyətə başlamışdır. Tələbələrin tədqiqatlara əsas hərəkətverici qüvvə kimi cəlb olunması universitetin intellektual inkişafına xidmət etməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Elmdə son hədd, axırıncı tədqiqat anlayışı yoxdur. Elm davamlı inkişafdır. Bu inkişafla ayaqlaşmaq isə günün tələbidir".***

*Bu gün muxtar respublika rəhbərinin elmə, təhsilə göstərdiyi diqqət və qayğı, doğma diyarımızdakı elmi mühit də elmin, milli ziyalılığın inkişafına, elmi potensialın artmasına öz dəyərli töhfələrini verməkdədir. Bütün bunlar isə elmin inkişafına göstərilən yüksək diqqət, eyni zamanda Azərbaycanın güclənməsinə, inkişafına, dünya miqyasında tanınmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin də dediyi kimi: **"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır".***


**Səminə RÜSTƏMOVA**
*Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Elektronika və informasiya texnologiyaları kafedrasının müəllimi*


## Naxçıvan Mediasiya Təşkilatı üçün müasir iş şəraiti yaradılıb



Aprelin 14-də Naxçıvan Mediasiya Təşkilatında bununla bağlı təqdimat olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edərək deyib ki, 2021-ci ilin iyul ayından fəaliyyət göstərən mediasiya xidməti fərdi mediatorlar vasitəsilə həyata keçirilirdi. 15 fevral 2022-ci il tarixdə Naxçıvan Mediasiya Təşkilatının yaradılması məqsədilə Mediatorların Təsis Yığıncağı keçirilib. Yığıncaqda Naxçıvan Mediasiya Təşkilatının yaradılması barədə qərar, həmçinin təşkilatın Nizamnaməsi qəbul olunub. Mediasiya Təşkilatının fəaliyyəti 2019-cu ildə qəbul edilmiş "Mediasiya haqqında" Qanunla tənzimlənir. Ötən dövrdə bu sahədə müvafiq işlər görülüb, mediatorlar kursa göndərilərək təcrübə keçiblər. Hazırda muxtar respublikada 5 mediator fəaliyyət göstərir.



Cəlil Rüstəmov bildirib ki, mediatorlar fəaliyyətlərini günün tələbləri səviyyəsində qurmalı, daxil olan müraciətlər ətraflı araşdırılmalı, kütləvi informasiya vasitələrində maarifləndirmə və təbliğat işləri aparılmalı, mediasiya izah edilməli, könüllü mediasiya inkişaf etdirilməli, yeni mediatorların seçilib təşkilata üzv seçilməsi ilə bağlı işlər aparılmalıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev qeyd edib ki, muxtar respublikada mediasiya təşkilatının yaradılması hüquqi dövlət quruculuğu sahəsində atılan uğurlu addımdır. Mediatorun vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı Qanunla müəyyən olunan mediasiya prosesi beynəlxalq təcrübədə də geniş istifadə olunur. Muxtar respublikada mediasiya fəaliyyətinin həyata keçirilməsi istiqamətində görülən tədbirlər məhkəmələrin iş yükünün azaldılmasına da öz töhfəsini verəcək.

Naxçıvan Mediasiya Təşkilatının sədri Yusif Həsənov bildirib ki, təşkilat üçün 1 mediasiya prosesi, 1 qeydiyyatçı-operator və arxiv, 2 mediator və təşkilat direktoru üçün iş otağı ayrılıb. Otaqlar lazımi mebel avadanlıqları və kompüterlərlə təchiz olunub.

Yusif Həsənov yaradılmış şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

**"Şərq qapısı"**

# Amalı xalqa xidmət olan qayğıkeş həkim, müdrik alim



*Həyatda şərəfli və dəyərli bir ömür yaşayan, Vətənə, torpağa məhəbbəti, təmiz mənəviyyatı, sədaqəti, xalqa xidməti ilə yaddaşlarda qalan insanların əməlləri, gördüyü işlər daim anılır. Onlar parlaq həyat yolu, yüksək mədəniyyəti, mükəmməl savadı, xeyirxah əməlləri ilə milyonlarla insana nümunə olur, insan münasibətlərini daha yeni, daha yüksək mərtəbəyə qaldırmaqla təkcə mənsub olduqları xalqa deyil, bütün bəşəriyyətə xidmət göstərmiş olurlar. Azərbaycanın görkəmli alimi, akademik Zərifə xanım Əliyeva kimi.*

Bu il dünya şöhrətli alim-oftalmoloq Zərifə xanım Əliyevanın anadan olmasının 99, əbədiyyətə qovuşmasının 37-ci ildönümüdür. Görkəmli alimin 62 illik parlaq ömür yolu bu təqvim çərçivəsinə sığmayaraq xeyirxah əməlləri sayəsində ölməzlik qazanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görkəmli akademikin Azərbaycan tibb elminin inkişafındakı xidmətləri barədə demişdir: ***"Akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir".***

Akademik Zərifə xanım Əliyeva mənalı və zəngin həyat yolu keçmişdir. O, qədim Naxçıvan diyarında, adlı-sanlı ziyalıların vətəni olan Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ocağında dünyaya göz açmışdır. Uşaqlıq və ilk gənclik illəri Şahtaxtıda keçən Zərifə Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmışdır. Zərifə xanım 1942-ci ildə Bakı şəhərində orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra oftalmoloq ixtisasını seçmişdi. Sonra Moskvaya getmiş və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olmuş, praktik vərdişlərə yiyələnmiş, oftalmoloq ixtisası üzrə mütəxəssis kimi təkmilləşmiş, iki ildən sonra Vətənə qayıtmışdır. 1949-cu ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlamışdır. Bununla da onun elmi axtarışlarının, gələcək müvəffəqiyyətlərinin təməli qoyulmuşdur. O, fəaliyyət göstərdiyi Göz Xəstəlikləri İnstitutunun aspiranturasına daxil olmuş, elmi axtarışları dövründə özünə rahat yollar seçməyərək Vətənə, xalqa xeyir verə biləcək ən çətin sahələrdə əzm və iradə ilə çalışmışdır.

Ötən əsrin ortalarında Azərbaycanda traxoma xəstəliyi ocaqları genişlənir, ən çox uşaq müəssisələrini, məktəbləri əhatə edirdi. 1948-ci ildə Naxçıvan Muxtar Respublikasında 7 min nəfər traxomaya yoluxmuşdu. Onlardan 2 mindən çoxu uşaqlar idi. Yaşlıları, o cümlədən uşaqları görmə qabiliyyətinin itirilməsi kimi əzablı dövr gözləyirdi. Belə bir acınacaqlı vəziyyət tək Naxçıvan Muxtar Respublikasında yox, bütün Azərbaycanda ciddi həyəcan siqnalının çalınmasına əsas yaratmışdı. Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda təhsilini başa vuran gənc həkim Zərifə xanım Əliyeva 1949-cu ildə Naxçıvanda traxomaya qarşı mübarizəyə həsr edilmiş səyyar seminarlarda iştirak etmiş, bu sahədə əldə etdiyi elmi və praktik nailiyyətlərin tətbiqinə nail olmuşdu. Gənc alim 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdi. Həmin illərdə Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda böyük elmi işçi vəzifəsində çalışan Zərifə xanım 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunmuşdur.

Zərifə xanım Əliyeva "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində – Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdi. Alim-oftalmoloqların yüksək qiymətini almış dissertasiya işi oftalmologiyanın bu sahəsində ozamankı Sovetlər Birliyi məkanında ilk işlərdən idi. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmiş və o, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilmişdir. Çətinliklərdən qorxmayan, hər zaman ən mürəkkəb problemlərin həllinə cəhd göstərən görkəmli alim tədqiqatlarını rahat kabinetlərdə aparmırdı. O, Azərbaycanın rayonlarını kəndbəkənd gəzir, insanları maarifləndirirdi. O vaxtlar Zərifə xanım Əliyevaya dünya şöhrəti gətirən görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyası Elmi-Tədqiqat İnstitutunda yox, məhz istehsal müəssisəsində – Bakı Məişət Kondisionerləri Zavodunda yaradılmışdı. 1981-ci ildə ölkəmizin tibb elmi, səhiyyə sistemi tarixində son dərəcə mühüm bir hadisə baş vermişdir. Moskvadan alınan xəbərdə qeyd edilirdi ki, Azərbaycan alimi Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elmi-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Zərifə xanım Əliyeva 1982-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri olmuş, 1983-cü ildə nəzəri və təcrübi təbabətdə qazandığı müvəffəqiyyətlərə, alınan elmi nəticələrin səhiyyə praktikasında geniş tətbiqinə, yüksəkixtisaslı tibbi kadrların hazırlanması yolunda göstərdiyi dəyərli xidmətlərə görə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Azərbaycan oftalmoloqları arasında Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk alimdir.

Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev demişdir: ***"Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın".***

Görkəmli akademikin elmi-tədqiqat işlərinin mövzu dairəsi çoxşaxəli və genişdir. O, görmə orqanlarının virusla zədələnməsinə, bu səpkidə aparılan müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" və sair əsərləri bu qəbildəndir. Zərifə xanım çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olmuşdur. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O onlarla elmlər doktoru və elmlər namizədinin elmi məsləhətçisi və elmi rəhbəri olmuş, böyük bir elmi məktəb yaratmışdır. Təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da görkəmli alim kimi tanınan Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi əvəzsiz xidmətlərinə görə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Akademik həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışmış, bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirərək dəyərli çıxışlar, məruzələr etmiş, dünya xalqlarını sülhə, əmin-amanlığa səsləmişdir. O, respublika "Bilik" Cəmiyyəti İdarə Heyətinin, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, Moskvada çıxan "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Zərifə xanımın çoxistiqamətli elmi yaradıcılığı 12 monoqrafiya, dərslik və dərs vəsaitlərində, 160-dan çox elmi işdə, bir ixtira və 18 səmərələşdirici təklifdə öz əksini tapmışdır. Böyük alimin bütün mənalı ömrüboyu yaratdığı, lakin heç yerdə çap olunmayan bir kitabı da var: bu heç bir dərsliyə, yaxud monoqrafiyaya sığmayan Zərifə xanım Əliyevanın həyat kitabıdır. Zərifə xanım Əliyeva yaşadığı ömrə təkcə yaxşı həkim olmağı sığdırmamışdır. O heç kəsin dərdinə biganə qalmayan qayğıkeş insan, vəfalı ömür-gün yoldaşı, mehriban ana idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Zərifə xanım əsl ana, vəfalı ömür-gün yoldaşı, ailəsinə qəlbdən bağlı olan insan idi. Ailə əsrlərboyu Azərbaycanda böyük mənəvi dayaq rolunu oynamışdır. Dəyanətli şəxsiyyət və dərin zəka sahibi olan Zərifə xanım ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı kimi bu çətin, lakin şərəfli missiyanı da layiqincə yerinə yetirən, ulu öndərə etibarlı mənəvi dayaq olan Şəxsiyyət və Ana idi. Bir-birini heyrətamiz şəkildə tamamlayan bu iki parlaq şəxsiyyətin ailə həyatı müasir Azərbaycan cəmiyyəti üçün bir nümunə, milli dəyərlərimizə sədaqətin nadir örnəyidir. Akademik Zərifə xanım Əliyeva Azərbaycana Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, dünya siyasətində öz nüfuzu və yeri olan İlham Əliyev kimi milli lider bəxş edən Ana kimi də unudulmazdır".***

Akademik Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. İllər bir-birini əvəz etsə də, əvəzolunmaz alimin əziz xatirəsi daim ehtiramla yad olunur. İndi onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Onun xatirəsinə ucaldılan büst və abidələr görkəmli alimə və əsl insana olan ehtiramın və məhəbbətin tükənməz təzahürüdür. Akademik Zərifə Əliyeva özünün səmimiliyi, xeyirxahlığı, insansevərliyi, vətənpərvərliyi, bəşəri duyğuları ilə xalqımızın qəlbində əbədi yaşayacaqdır.

## Əhalinin sağlamlığı diqqətdə saxlanılır

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini mart ayında da davam etdirib, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqətdə saxlanılıb.*

Ötən ay Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ olunan xroniki böyrək çatışmazlığı yaşayan xəstələr üçün dializ materialları və dərman preparatları, həmçinin peyvənd materialları, COVID-19 virusuna qarşı pfizer vaksini, Azərbaycan Respublikası Milli Onkologiya Mərkəzindən Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzinə kimyəvi terapiya aparmaq üçün dərman preparatları gətirilib.

Tibb işçilərinin peşə bacarıqlarının yüksəldilməsi istiqamətində ay ərzində 1 həkim Bakı şəhərinə kurs, 1 rezident və 5 orta tibb işçisi Naxçıvan şəhərində iş yerində təcrübə, 10 nəfər mama ixtisası üzrə nəzəri və praktik təcrübə kursu keçməsi üçün Naxçıvan Tibb Kollecinə göndərilib. Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin 25 və Tibb Kollecinin 121 tələbəsi tibb müəssisələrinə hamiliyə verilib.

Mart ayında Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu tərəfindən 8 həkim-nevropatoloq və 14 təcili tibbi yardım həkimi olmaqla, ümumilikdə, 22 həkim "Sinir sistemi xəstəlikləri zamanı təxirəsalınmaz vəziyyətlər" mövzusunda onlayn təkmilləşdirmə kursunda iştirak edib. Rusiya Terapevtlərinin Elmi Tibb Cəmiyyəti ilə Azərbaycan Tibb Universiteti tərəfindən birgə daxili xəstəliklər üzrə onlayn elmi-praktik konfrans keçirilib, konfransa Naxçıvan həkimləri də qoşulub. Azərbaycan Respublikası Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkimlərinin iştirakı ilə "Vərəmin aşkarlanması, diaqnostikası, müalicəsi və profilaktikasına müasir yanaşmalar" mövzusunda konfrans keçirilib, Şərur və Şahbuz Rayon Mərkəzi xəstəxanalarında Ağciyər Xəstəlikləri Dispanserinin həkimlərinin iştirakı ilə seminarlar təşkil olunub.

Ötən ay Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası Şərur və Culfa rayonlarında əhalinin müayinə və müalicəsini həyata keçirib, 70 uşaqda sünnət əməliyyatı aparıb. Xəstəxananın göz həkimləri rayonlarda şəkərli diabet xəstəliyindən əziyyət çəkən 131 xəstənin göz dibinin müayinəsini təmin edib, lazımi məsləhət və təyinatlar veriblər.

Bakı şəhərindən dəvət olunmuş LOR həkimi tərəfindən Naxçıvan Muxtar Respublika Xəstəxanasında 30, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimləri tərəfindən 35 nəfərdə müayinə və cərrahiyyə əməliyyatı aparılıb. Naxçıvan Diaqnostika Müalicə Mərkəzində isə Bakı şəhərindən dəvət olunmuş həkimlər tərəfindən 62 nəfərdə müxtəlif cərrahi əməliyyatlar yerinə yetirilib. Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin təhsil işçilərindən 53 qadında süd vəzinin profilaktik müayinəsi aparılıb, 3 nəfərdə patologiya aşkar edilərək mərkəzə ətraflı müayinə və müalicəyə dəvət olunub. Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin yaratdığı həkim briqadası Şərur rayonunun Danyeri kəndində 7 nəfərdə laboratoriya və 4 nəfərdə USM müayinə, 4 nəfərdə ginekoloji, 5 nəfərdə pediatrik müayinə, Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin 27 qadın işçisinin USM müayinəsini həyata keçirib.

Muxtar respublika ərazisində genişləndirilmiş dezinfeksiya tədbiri olaraq 1 milyon 298 min kvadratmetrdən artıq sahədə dezinfeksiya işləri görülüb. COVID-19 xəstəliyinə qarşı profilaktika tədbiri olaraq mart ayında 795 nəfərdə I, 2384 nəfərdə II, 6372 nəfərdə III tur vaksinasiya aparılıb. Qanla işləyən tibb işçilərinin 356-sı I, 603-ü isə II doza hepatitə qarşı vaksinasiya olunub.

Gigiyena və Epidemiologiya Mərkəzinin həkimləri tərəfindən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti nümayəndələrinin iştirakı ilə özəl müəssisələrdə monitorinqlər keçirilib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və digər müvafiq təşkilat nümayəndələrinin iştirakı ilə Babək rayonunun Kültəpə kənd məktəbində yoxlama aparılıb.

Dövlət İmtahan Mərkəzi tərəfindən Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrdə 434 vakant vəzifə müsabiqəyə çıxarılıb, 214 namizəd sənəd təqdim edib. Keçirilmiş test imtahanında 211 namizəddən 77-si keçid balını toplayıb. Mərkəz tərəfindən 69 nəfərə işə qəbul haqqında arayış verilib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən 24 nəfər Mərdəkan qəsəbəsindəki Müharibə və Əmək Veteranları Pansionatına, 2 nəfər Naxçıvan Muxtar Respublikası Əlillərin Bərpa Mərkəzinə, 1 nəfər isə müxtəlif xəstəxanalara göndərilib.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yaradılmasının 40 illiyi qeyd edilib



*Aprelin 14-də Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinin 40 illiyi münasibətilə tədbir keçirilmişdir.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova açaraq bildirmişdir ki, qədim diyarımızda muzeylərin fəaliyyətinin canlandırılması, yeni muzeylərin yaradılması sahəsində mühüm işlər görülür, bu mədəniyyət ocaqları muzeyşünaslığın yeni nailiyyətlərinə əsaslanaraq qurulur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində tarix-mədəniyyət abidələrinin qorunması, onların bərpası və konservasiyası son illər ərzində geniş vüsət almış, tariximizin və mədəniyyətimizin saxlanc yeri olan yeni muzeylər istifadəyə verilmiş, onların maddi-texniki bazası möhkəmləndirilmişdir.

Vurğulanmışdır ki, Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1978-ci ildə rayon mədəniyyət şöbəsinin nəzdində ictimai əsaslarla təşkil edilmişdir. Ümummilli lider Heydər Əliyevin 1980-ci ildə rayonlarda tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında imzaladığı qərara əsasən muzeyə dövlət statusu verilmiş, 1982-ci il fevral ayının 1-dən etibarən dövlət müəssisəsi kimi fəaliyyətə başlamışdır. Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinin binası müasir tələblər əsasında tikilərək 2018-ci ilin dekabr ayında istifadəyə verilmişdir. 350 eksponatla fəaliyyətə başlayan bu mədəniyyət müəssisəsinin fondunda hazırda 10 minə yaxın eksponat mühafizə olunmaqdadır.

Mədəniyyət naziri muzey işinin qurulması və təşkilinə göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova muxtar respublikanın mədəniyyət ictimaiyyəti adından minnətdarlığını bildirmişdir.

Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Aysel Zeynalabdinova "Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi dünən və bu gün" mövzusunda çıxış edərək diqqətə çatdırmışdır ki, muzeylərin maddi-sosial bazasından istifadə etməklə gənclərə milli dəyərlərimizin aşılanması, ictimai-siyasi fəallıqların gücləndirilməsi əhəmiyyətli bir vəzifə kimi qarşıya qoyulur. Tədris və mədəniyyət müəssisələrində gənclərlə işləyərkən tarixin bizə ərməğan etdiyi qızıl xəzinəni düzgün təbliğ etmək isə gələcək cəmiyyətimizi formalaşdırmağa xidmət edir. Bu xəzinəni, milli ənənələrimizi özündə cəmləşdirən tarixi məkanlardan biri də Şərurun 40 illik yubileyini qeyd etdiyimiz bu zəngin mədəniyyət ocağıdır.

"Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi qədim bölgənin keçmişini yaşadan mühüm saxlanc yeridir" mövzusunda çıxış edən muzeyin direktoru Həcər Əsgərova bildirmişdir ki, buradakı ekspozisiyada 700-ə yaxın eksponat sərgilənir. Muzeydə qədim insan yaşayış məskənlərindən aşkar olunan maddi mədəniyyət nümunələri, bölgənin tarixi, mədəniyyəti ilə bağlı və digər muzey əşyaları mühafizə və nümayiş olunur. Bu gün rayon sakinlərinin təşəbbüsləri ilə evlərdə olan eksponatlar muzeylərimizə təqdim edilir.

Çıxışlardan sonra muzeyin ekspozisiyasına və yeni hədiyyə olunan eksponatların sərgisinə baxış olmuşdur. Məlumat üçün bildirək ki, muzeyə yeni təqdim olunan 50 eksponat qədim məişət əşyaları, arxeoloji materiallar və dekorativ-tətbiqi sənət nümunələrindən ibarət olmaqla zəngin tariximizin və milli mədəniyyətimizin tədqiqi və təbliğinə xidmət edəcək.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## "Ümumtəhsil məktəblərində kitabxana işinin təşkili" mövzusunda konfrans olub

Muxtar respublikanın ümumtəhsil məktəblərində elan olunan "Mütaliə aylığı" çərçivəsində şagirdlərdə mütaliə mədəniyyətinin formalaşdırılması üçün bir sıra tədbirlər keçirilib. Bu tədbirlərin davamı olaraq aprelin 14-də də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələrinin kitabxanaçıları ilə "Ümumtəhsil məktəblərində kitabxana işinin təşkili" mövzusunda konfrans olub.



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov muxtar respublikada kitabxana işinin tarixindən, təhsil müəssisələrinin kitabxanalarına göstərilən dövlət qayğısından və qarşıda duran vəzifələrdən danışıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahəyə göstərdiyi diqqət və qayğı nəticəsində məktəb kitabxanaları 3 milyona qədər dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş, bədii ədəbiyyat və ayrı-ayrı fənlərin tədrisi üçün 2140 ədəd elektron tədris vəsaiti ilə təmin edilib.

Bildirilib ki, təkcə 2020-2021-ci tədris ilində muxtar respublika məzunlarından 13-ü ali məktəblərin Kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisasına qəbul olub. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan 216 kitabxanada 84 kitabxana müdiri, 136 kitabxanaçı çalışır ki, onlardan da 49-u işə qəbul müsabiqələrində yüksək nəticə göstərərək işlə təmin edilib.

Qeyd olunub ki, bu gün keçirilən konfransın əsas məqsədi ümumtəhsil məktəblərinin kitabxanalarında şagirdlər arasında mütaliə vərdişlərinin aşılanması, təhsil müəssisələrində kitabxanaların fəaliyyətinin gücləndirilməsi, kitabxanalarda yaradılan əlverişli şəraitdən səmərəli istifadənin təşkilindən ibarətdir.

Tədbirdə Ordubad Rayon Təhsil Şöbəsinin müdiri Samir Zeynalov, Sədərək Rayon Təhsil Şöbəsinin metodik kabinet müdiri Firuz Ağayev, Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin kitabxana müdiri Nəcibə Hüseynova, Culfa şəhər 2 nömrəli tam orta məktəbin kitabxana müdiri Elza Hüseynli mövzu ilə bağlı çıxış ediblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikada ailə, qadın və uşaq hüquqları qorunur

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması mart ayında da diqqətdə saxlanılmış, bir sıra tədbirlər keçirilmiş, beynəlxalq və əlamətdar günlər qeyd edilmişdir.*

Ailələrin hüquqlarının qorunması, sosial problemlərinin öyrənilməsi və həll edilməsi istiqamətində ötən ay Culfa rayonunun Yaycı kəndində xüsusi qayğıya ehtiyacı olan Mustafayevlər ailəsinə baş çəkilmiş, onların problemləri ilə maraqlanılmış, ailəyə ehtiyaclarına uyğun köməklik göstərilmişdir.

Naxçıvan Biznes Mərkəzində İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi tərəfindən maliyyələşdirilən Azərbaycan Mikromaliyyə Assosiasiyası və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən icra olunan "Ailə rifahı naminə qadınları maarifləndirək" layihəsinin açılış konfransı keçirilmişdir. Layihənin əsas məqsədi muxtar respublikada yaşayan 50-dən artıq qadına və onların ailələrinə iqtisadi dəstək göstərilməsi, öz bizneslərinə başlamaq və ya genişləndirmək üçün lazım olan bilik, bacarıq və maliyyə dəstəyi verməklə onların sahibkarlıq fəaliyyətinə təşviq edilməsinə xidmət edir. Tədbirdə muxtar respublikanın 2021-ci ildəki sosial-iqtisadi inkişafından bəhs edən film nümayiş etdirilmiş və mərkəzdə muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəricilərindən, müəssisələrdə istehsal olunan məhsullardan ibarət sərgiyə baxış olmuşdur. Sonda İsveçrənin Azərbaycan Respublikasındakı səfirinin müavini, Cənubi Qafqaz üzrə İsveçrə Əməkdaşlıq Təşkilatının Regional direktorunun müavini Alberto Hernandezin layihə iştirakçıları ilə görüşü olmuşdur. "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" və "Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" layihələrində sərmayə kapitalı verilmiş 4 qadının yaşadığı ünvanlarda sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmiş, heç bir neqativ hal və nöqsan aşkarlanmamışdır.

Hesabat ayında Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bayram tədbiri keçirilmiş, çıxışlar olmuş, komitə tərəfindən müxtəlif nominasiyalar üzrə səmərəli fəaliyyətlərinə görə fərqlənən 47 qadına diplom, eləcə də tədbirdə iştirak edən qadınlara hədiyyə və gül təqdim olunmuşdur. Həmçinin tədbirdə qadın müəlliflərin kitabları, əl işləri və ailə təsərrüfatı məhsullarından ibarət sərgi-satışı da təşkil edilmişdir.

Ötən ay "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində komitə tərəfindən istedadlı və sərmayə kapitalı alan qadınların əl işləri və istehsal etdikləri ailə təsərrüfatı məhsullarının sərgi-satışı həyata keçirilmişdir. Hesabat dövründə kompleksdə fəaliyyət göstərən əl işləri mağazasında və keçirilən sərgi-satışlarda 155 istedadlı qadının 3992 adda əl işi və 14 qadın ailə təsərrüfatçısının məhsullarının satışı həyata keçirilmiş, 41 qadının 2268 manat dəyərində 193 əl işi, 32 adda ailə təsərrüfatı məhsulları satılaraq dəyəri sahiblərinə təqdim olunmuşdur. Novruz bayramı münasibətilə Şahbuz şəhərindəki Ahıllar Evinin sakinləri ilə görüş keçirilmiş, 6 ahıl vətəndaşa bayram hədiyyələri təqdim olunmuşdur.

Hesabat ayında Ordubad rayonunda yaşayan xüsusi qayğıya ehtiyacı olan ailənin üzvü və sağlamlıq imkanları məhdud qadınlara xalçaçılıq peşəsinin öyrənilməsi ilə bağlı təlim keçirilmişdir. Təlimdə 3 nəfər xüsusi qayğıya ehtiyacı olan ailədən, 11 nəfər sağlamlıq imkanları məhdud qadın və Ordubad Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin 5 dərnək rəhbəri olmaqla, 19 nəfər iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasında tək və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir. Bu istiqamətdə şəhər və rayon icra hakimiyyətlərindən müvafiq kateqoriyadan olan qadınlar haqqında məlumatlar alınmış, komitədə yaradılmış bazaya əlavə edilmiş, təhlili aparılmış, 5 qadının peşə təhsilinə yiyələnməsi üçün məlumatları əmək və əhalinin sosial müdafiəsi və təhsil nazirliklərinə göndərilmişdir.

"Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun olaraq 1 uşaq müəssisəsində və valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 2 uşağın evində monitorinq keçirilmiş, bu kateqoriyadan olan 2 uşağın qeydiyyatı aparılmışdır. Muxtar respublikada uşaq hüquqlarının həyata keçrilməsinə dair elektron məlumat bankına 196 uşağın fərdi məlumatları daxil edilmişdir.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar mart ayında Babək rayonu üzrə tədrisə cəlb edilmiş 10 sağlamlıq imkanları məhdud uşağın təhsil aldığı 4 müəssisədə, həmçinin 5 sağlamlıq imkanları məhdud uşağın məktəbəqədər təhsil müəssisələrinə cəlbi ilə bağlı evlərində monitorinqlər keçirilmişdir.

10 mart – Milli Teatr Günü ilə bağlı Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında xalq nağılı əsasında hazırlanmış "Keçinin qisası" tamaşasına xüsusi qayğıya ehtiyacı olan ailələrin, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud uşaqlar, həmçinin şəhid övladları olmaqla, 64 uşaq cəlb olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Məşğələlər keçirilib

*"Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı"na əsasən tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələləri keçirilib.*



Zabitlərin mənəvi-psixoloji dayanıqlığının qorunması və bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən məşğələlərdə komandir heyəti müxtəlif mövzularda nəzəri dərslərdə iştirak edib.

Komandir hazırlığında "Günün nizam qaydaları"na uyğun bölmələrdə şəxsi heyətin yerinə yetirdiyi tapşırıqlar və icra etdiyi bütün fəaliyyətlər nümayiş etdirilib.

Məşğələlərdə səhra rabitə qovşağı və elementlərinin ərazidə yerləşdirilməsi, açılması, yaranmış mürəkkəb şəraitdə rabitənin təmini ilə bağlı tapşırıqların yerinə yetirilməsi praktik olaraq göstərilib.

Məşğələlər zamanı "Artilleriya bölmələrinin fəaliyyəti" mövzusunda dərslər keçilib və praktik atış tapşırıqları icra edilib.

Komandir hazırlığının sonunda zabitlərin ümumqoşun, ixtisas, topoqrafiya və fiziki hazırlıq səviyyələri yoxlanılıb.

Məşğələlərin yekununda bölmələrin döyüş hazırlığının yüksəldilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

**Kənan CƏLİLOV**

## Dilçilik elmimizə yeni töhfələr

*Cəmiyyətdə elə ziyalılar var ki, onlar bir neçə istiqamətdə çalışır və işinin çoxluğuna baxmayaraq, uğur qazanırlar. Onlardan biri də Naxçıvan Dövlət Universitetinin müəllimi, Xarici dillər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent, bütün bunlarla bərabər, həm də şair olan Şirməmməd Qulubəylidir.*

Muxtar respublikamızda Şirməmməd müəllim sanballı ziyalı, xeyirxah insan, hörmətli pedaqoq kimi tanınır. O, məhsuldar fəaliyyəti ilə seçilir. Belə ki, indiyə qədər Şirməmməd müəllimin 17 kitabı, çox sayda elmi-nəzəri, metodik məqalələri çap olunub. Bu yaxınlarda onun iki kitabının təqdimat mərasimi keçirilib və həmin nəşrlər oxucuların marağına səbəb olub.

Şirməmməd Qulubəylinin 256 səhifədən ibarət "Müasir Azərbaycan dilində ismi funksional-semantik sahələr" adlı kitabı elmi-nəzəri səviyyəsi, məntiqli fikirləri, mövzuya yanaşma tərzi ilə diqqəti çəkir. Burada, xüsusilə də ismin tərifinə yeni prizmadan baxış, daha dolğun elmi yanaşma özünü göstərir. Azərbaycan dilinin qrammatikasına aid yazılmış kitabların, demək olar ki, hamısında isim əşya adı bildirən əsas nitq hissəsi kimi dəyərləndirilir. Lakin uzun illərdir ki, bu təriflə razılaşmayan alimlər vardır. Belə ki, ərəb dilində mənasına görə "əşya" cansız varlıq kimi dərk olunur və belə olduqda ismin əhatə etdiyi mənəvi anlayışlar və insan məfhumu kənarda qalır. Şirməmməd müəllimin kitabında haqlı olaraq isim maddi varlıqların və mücərrəd anlayışların adını bildirən əsas nitq hissəsi kimi təqdim olunur və bu yanaşmanın bundan sonra yazılacaq qrammatika kitablarına böyük təsiri olacaqdır. Əslində, dünya qrammatikasında sözögədən tərifə yaxın fikirlər olub. Lakin Azərbaycan dilinin qrammatikasında köhnə tərifin tərəfdarları daha çoxdur. Bu anlamda, Şirməmməd müəllimin kitabı mühüm dəyərə malikdir. Bundan başqa, kitabda ismin müxtəlif kateqoriyalarına, xüsusilə də hal kateqoriyasına aid fərqli fikirlərlə qarşılaşırıq. Məsələn, yönlük halın çox sayda üslub məqamlarının araşdırılması belə dəyərli işlərdən biridir. Müəllifin elmi-nəzəri fikirlərinin faktik ədəbi dil örnəkləri ilə təsdiq edilməsi irəli sürdüyü mülahizələrin əsaslı olduğunu göstərir.

Şirməmməd Qulubəylinin 288 səhifədən ibarət "İngiliscə-Azərbaycanca danışıq kitabçası" da maraqlı nəşrlərdən biridir. Kitabda iki dildə ad, soyad, yaş, tanışlıq, dil, iş, inam və sair kimi mövzularda danışıq məsələlərindən bəhs edilir. Kitabda diqqət çəkən məqamlardan biri də danışıq mövzularına aid cümlə və mətnlərdə çox sayda hikmətli fikirlər verilib. Məsələn, "Yaş" başlığı altında qeyd edilmiş fikirlərdən biri belədir: "Əgər sən pendir və ya şərab deyilsənsə, yaşın məsələyə dəxli yoxdur". Bu fikirlə insanlara yaşın çoxluğunu müsbət dəyərləndirməyənlərə bildirmək istəyir ki, adıçəkilən ərzaqlar köhnələ bilər, yaşlı insanlara bu mövqedən yanaşmaq düzgün deyil, insan yaşlaşdıqca müdrikləşir. Kitabdakı "Heç vaxt hər hansı bir şəxsi yaşına görə mühakimə etməyin" sözləri də həmin fikrin davamı kimi səslənir. "Əgər düşməni bağışlamağa məcburuqsa, ona inanmağa məcbur deyilik" cümləsi bütün zamanlar üçün dəyərli və zəruri bir fikrin daşıyıcısıdır. "Hər hansı bir şəxs gərək özündən daha yaxşısını özünə dost seçsin. İnsanın çoxlu tanışları olur, lakin həqiqi dostları isə az olur" kimi çox sayda qiymətli tövsiyə xarakterli fikirlər kitabın bəzəyidir.

Şirməmməd Qulubəylinin hər iki kitabı dəyərli və oxunaqlıdır. Müəllifi bu iki dəyərli nəşrə görə təbrik edir, fəaliyyətində böyük uğurlar arzulayırıq.

**Sədaqət HƏSƏNOVA**
***filologiya elmləri doktoru, professor***

Dini-mənəvi dəyərlərimiz

# Orucun niyazı xalqımıza sülh və əmin-amanlıq, süfrələrimizə bərəkət, qəlbimizə şəfqət nəsib etsin

## Ordubad rayonunda xüsusi təmtəraqla keçirilən “Orucun 15-i” mərasimi



Təqribən, 25 il bundan əvvəl atamın işi ilə bağlı ailəlikcə Bist kəndindən rayon mərkəzi Ordubad şəhərinə köçməli olduq. Onda hələ 5-6 yaşım var idi. Şəhərin 3 nömrəli tam orta məktəbində təhsil almağa başladım. Burada tanış olduğum sinif yoldaşlarımla xoş, mehriban ünsiyyət qurub, özümə yeni dostlar qazandım. Məktəbə bir gedib, bir gəldiyim Səkinə isə həm ən çox sevdiyim dostum, həm də qapıbir qonşumuz idi. O məndən böyük olduğundan məktəbdə mənə göz-qulaq olması üçün anam məni ona tapşırardı. Bir gün məktəbdən qayıdarkən Səkinə dedi ki, bilirsən, bu gün Orucun 15-ci günüdür, bayramdır, axşam qonşulara torba atmağa gedəcəyik, sən də getmək istəyirsən? Sözün düzü, mən Novruz bayramından başqa belə bir bayramın olduğunu heç bilmirdim. Çox sevindim. Evə çatar-çatmaz anama “Səkinə deyir ki, bu gün bayramdır. Axşam torba atmağa gedəcəklər”. Anamdan onlarla birlikdə getməyim üçün mənə də icazə verməsini xahiş etdim. Açığı, heç torba atmağın nə demək olduğunu da dərk etmirdim. Amma əyləncəli bir şey olduğunu düşünürdüm, axı həm də uşaqlarla birlikdə zaman keçirəcəkdim. Həmin gün mən deyim 5, siz deyin 15 dəfə Səkinəgilə gedib-gəldim. “Bəs nə vaxt gedəcəyik torba atmağa?” – deyə. Səkinə də hər dəfəsində: “Bir az da gözlə, axşam düşsün, hər kəs iftarını açsın, uşaqlarla yığışaq, gedəcəyik”, – deyirdi. İftarın nə demək olduğunu anlamasam da, “yaxşı” – deyib, evə qayıdırdım. Və nəhayət, axşam düşdü. Səkinə torba atmaq üçün məni evdən götürməyə gələndə onu tanımadım. Çünki o oğlan libasında idi...

Ailəmlə birlikdə Ordubaddan Naxçıvana köçərkən artıq böyümüşdüm. Çox maraqlı olan bu mərasimdən də kifayət qədər məlumatım var idi. Axı bilavasitə o mərasimlərdə özüm iştirak etmişdim. Yalnız Ordubad şəhəri və onun ətraf kəndlərinə xas olan orucun 15-i mərasimi müqəddəs Ramazan ayının tən ortasında qeyd olunur. Bu bayramı insanların belə təntənə ilə keçirməsi “Artıq Ramazanı yarıladıq” anlamına gəlir. Ordubadın dünyagörmüş adamları deyirlər ki, bu mərasimə bir neçə gün qalmış hər evdə hazırlıq görərdilər. Həmin gün nişanlı qız evinin valideynləri bəyi görmək üçün oğlan evinə gələrdilər. Ailənin üzvlərinə, xüsusilə bəyə hədiyyələr gətirərdilər. Bundan əlavə, Orucun 15-nə qədər heç kimi iftar süfrəsinə dəvət etməzdilər. Əvvəllər bu mərasimdə kiçik-böyük, hər kəs iştirak edər, insanlar bişirib-düşürdükləri azuqələrdən yaxınına, qohumuna, tanışına göndərərmiş. Hər məhəllə bişirib-düşürdükləri naz-nemətlərdən götürər, yaşadıqları məhəllədəki bir ağsaqqal və ya ağbirçəyin evində toplaşıb, könül xoşluğu, ağızdadı ilə həmin naz-nemətlərlə iftarlarını açarmışlar. İftardan sonra hər kəs öz evinə gedər, uşaqların, gənclərin onların qapılarına torba atmasını gözləyərmiş. Mərasimin “torba atmaq” ənənəsini isə bu ənənəyə şahid kimi elə özüm danışım. Ordubadda yaşadığım 6 il müddətində hər il bu mərasimi böyük sevinclə gözləyirdim. Biz uşaqlar, xüsusilə torba atmaq ənənəsini çox sevirdik. Tanınmamaq üçün biz qızlar oğlan paltarı geyinər, üz-gözümüzü boyayar, papaq qoyardıq. Məhəllənin 10-15 uşağı yığışar, bir-bir qonşuların qapısını döyər, deyərdik:

*Orucun 15-dir gəldik sizə,*
*Orucun niyazını verin bizə.*
*Xanım, ayağa dursana,*
*Boşqabı doldursana,*
*Oğlun, qızın var olsun,*
*Doğduğun oğlan olsun,*
*Sonbeşiyin qız olsun,*
*Açılsın sünbül olsun.*

Sonra uşaqlardan biri “Rəbbi Cəlil boşqabı doldurub gəlir”, – söyləyər, qalanımız isə xor ilə “Miyanpur gəlir, ərik qurusu gəlir, alana gəlir”, – deyərdik. Bir sözlə, ürəyimiz nə istəyərdisə, onun adını çəkərdik. Kimsə pay verməsə, onlara tərəf üz tutub birgə söyləyərdik:

*Pay verənin oğlu olsun,*
*Verməyənin qızı olsun.*

Sonda uşaqların içində ən böyüyü yığılmış payı hər kəs arasında bərabər bölərdi.

Bəzi mənbələrdə deyirlər ki, ancaq Ordubad şəhərinə və ətrafdakı bir neçə kəndə aid olan bu mərasim İbn Mülcəmin (Həzrəti Əlini öldürən şəxs) ölümü ilə əlaqədar keçirilir. Naxçıvan alimlərinin araşdırmalarına əsasən Kəngərli rayonunun Xok kəndindən toplanmış materiallara görə isə bu kənddə Orucun çıxmasına 3 gün qalmış məhəlli xarakterli bir mərasim keçirilərmiş. Günortaya kimi evlərdə buğda qovurar, qızgəlinlər təzə paltarlar geyinər, oğlan uşaqları xoruz döyüşdürər, bayram edər, əylənərmişlər. Mərasim günortadan sonra başa çatarmış.

Dədə-babalarımızdan eşitdiyimə görə, sovet hakimiyyəti dövründə İslamın başqa ayinləri və ibadətləri kimi, orucluq da qadağan edilmişdi. Lakin qəlbində Allah sevgisi olan, imanlı adamlar gizlicə də olsa, öz borclarını yerinə yetirirdilər. Bir çoxları isə iş yerlərini itirmək, təqiblərə məruz qalmamaq üçün orucluqdan imtina etməyə məcbur olurdu. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra insanların vicdan azadlığı bərpa olundu, İslam dininə, onun ibadət və ayinlərinə olan münasibət də dəyişdi. Artıq Ramazan bayramı 1993-cü ildən bəri Azərbaycan Respublikasında dövlət səviyyəsində qeyd olunur. Bu gün muxtar respublikamızda digər adət-ənənələrimiz kimi dini dəyərlərimizin qorunub yaşadılmasına da dövlət qayğısı yüksək səviyyədədir. İslam dünyasının ayrılmaz hissəsi olan diyarımızda da milli və dini mərasimlər, o cümlədən Ramazan bayramı təntənə ilə qeyd edilir. Milli-mənəvi dəyərlərimizə, tarixi ənənələrimizə və dini mərasimlərimizə xüsusi ehtiramla yanaşan Ali Məclisin Sədri cənab Vasif Talıbovun iştirakı ilə hər il ənənəvi olaraq iftar süfrələri təşkil olunur.

Ötən ay dini-mənəvi dəyərlər sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə muxtar diyarımızda Ramazan və Məhərrəmlik aylarının fəzilətlərinə uyğun keçirilməsi, Ramazan bayramının və Məhərrəm ayının doqquzuncu, onuncu günlərinin ayinlərinin diyarımızda fəaliyyət göstərən məscidlərdə ənənəvi İslam qaydalarına uyğun şəkildə icrası barəsində aidiyyəti üzrə müvafiq tapşırıqların verilməsi dini-mənəvi dəyərlərin qorunub saxlanıldığı muxtar respublikamızda bu dəyərlərə yüksək diqqət və ehtiramla yanaşıldığının bir daha sübut edir.

Müsəlmanlar üçün mənəvi birlik və həmrəylik rəmzi olan belə tədbirlər bizi əmin-amanlığa, həmrəyliyə dəvət edir, cəmiyyətimizdə nəcib əməllərin və savab işlərin təntənəsini səsləyir.

**✍ Gülcamal TAHİROVA**

# Səyyar xidmətin fəaliyyəti razılıq doğurur

Muxtar respublikamızda dinamik sosial-iqtisadi inkişafın bəhrələrini həyatımızın bütün sahələrində görmək olar. İnsanların layiq olduğu səviyyədə yaşamasına yönəldilmiş tədbirlərin reallaşdırılması, dövlət orqanları tərəfindən vətəndaşlara yerlərdə hüquqi xidmətlərin göstərilməsi istiqamətində görülən işlər də həmin tədbirlərin tərkib hissəsidir. Bunun ifadəsi kimi, 2015-ci il martın 7-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yaradılan səyyar xidmətin fəaliyyəti hər bir naxçıvanlı tərəfindən yüksək qiymətləndirilir. Nazirliyin əməkdaşı, polis mayoru Seymur Tağıyevin sözlərinə görə, səyyar xidmət üçün nazirliyə “Hyundai” markalı avtomobil alınıb. Avtomobil xidmət sahələrinə uyğun olaraq kompüter, POS-terminal, fotoaparat və digər avadanlıqlarla təchiz edilib. Səyyar xidmət avtomobili vasitəsilə yerlərdə vətəndaşlara ümumvətəndaş pasportlarının və şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, ov silahlarının qeydiyyata alınması üzrə hüquqi xidmətlər göstərilir. Avtomobildə quraşdırılan müasir avadanlıqlar ümumvətəndaş pasportlarının, şəxsiyyət və sürücülük vəsiqələrinin yerlərdə vətəndaşlara verilməsinə imkan yaradıb.

Seymur Tağıyevin verdiyi məlumata görə, xidmət 2021-ci ili uğurla başa çatdırıb. Belə ki, il ərzində səyyar xidmətə 16 min 900 müraciət olub. Onlardan 15 min 419-u şəxsiyyət vəsiqəsi, 1309-u sürücülük vəsiqəsi, 172-si məhkumluq arayışı almaq üçün müraciətlərdir. Müraciətlər vaxtında öz həllini tapıb.

2022-ci ilin yanvar ayının 5-dən xidmət öz fəaliyyətini davam etdirməkdədir. Həmin tarixdən 30 mart 2022-ci il tarixədək muxtar respublikanın bir sıra kəndlərində, o cümlədən Culfa rayonunun 10, Babək rayonunun 14, Şahbuz rayonunun 3, Kəngərli rayonunun 3, Şərur rayonunun 15, Sədərək rayonunun 2, Ordubad rayonunun 7 kəndində vətəndaşlara xidmət göstərilib. Həmin kəndlərdə xidmət zamanı, ümumilikdə, 2796 nəfərin müraciətinə baxılıb. Bu müraciətlərin 2438-i şəxsiyyət vəsiqəsinin verilməsi və dəyişdirilməsi, 300-ü sürücülük vəsiqəsinin dəyişdirilməsi, 58-i isə məhkumluq haqqında arayışların verilməsi ilə əlaqədar olub. Səyyar xidmət 1 aprel 2022-ci il tarixdən Babək rayonunun ərazisində öz fəaliyyətini davam etdirir.

# Maarifləndirici tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində sığorta növlərinin icrası ilə bağlı “Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidməti” publik hüquqi şəxs tərəfindən maarifləndirici tədbir keçirilib. Tədbiri giriş sözü ilə Maliyyə Nazirliyinin Ümumi işlər və kadrlar şöbəsinin müdiri Ramin Məmmədov açıb.

Tədbirdə “Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidməti” publik hüquqi şəxsin əməkdaşları Vüsal Ağayev, Zeynəb Babayeva və Amil Məmmədov çıxış edərək avtomobil nəqliyyatı vasitələrinin tam sığortası, daşınmaz əmlakın icbari sığortası, aqrar sığorta, fərdi qəza sığortası və fiziki şəxslərə məxsus olan əmlakların, heyvanların sığortası haqqında ətraflı məlumat veriblər.

Sonda suallar cavablandırılıb, mövzu ətrafında müzakirələr aparılıb, sığorta növlərinə dair 200 buklet və broşür tədbir iştirakçılarına paylanılıb.

**Xəbərlər şöbəsi**

# Ağır atletlərimizdən uğurlu nəticə



*Ölkəmizin paytaxtı Bakı şəhərinin Şüvəlan qəsəbəsindəki Ağır Atletika Akademiyasının yarış zalında 9-10 aprel tarixlərdə keçirilən kişilər və qadınlar arasında ağır atletika üzrə Azərbaycan çempionatına yekun vurulub.*

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Ağır Atletika Federasiyasının birgə təşkil etdiyi çempionatda ölkənin bütün bölgələrindən 100-dən çox atlet qüvvəsini sınayıb. Çempionatın təşkilində məqsəd ağır atletika idman növünün şəhər, qəsəbə və kəndlərdə təbliği və inkişafına dəstək verilməsi, idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsi, texniki cəhətdən hazırlıqlı və dərəcə normalarını yerinə yetirən idmançıların seçilməsi, kişilərdən və qadınlardan ibarət milli yığma komandaların tərkibinin müəyyənləşdirilməsi, qarşıdakı beynəlxalq yarışlara hazırlanması olub.

Yarışda Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının 3 idmançısı da mübarizə aparıb. Məşqçi Şəfi Hüseynovun rəhbərliyi altında ən böyük uğura qadınların yarışında Gülcahan Əliyeva imza atıb. Belə ki, 55 kiloqram çəki dərəcəsində körpücük üzərinə çıxan idmançımız, ümumilikdə, 105 kiloqramın (birdən 45, təkanla qaldırmada 60 kiloqram) öhdəsindən gələrək ölkə çempionu adını qazanıb. İlk dəfə olaraq böyüklərin yarışında mübarizə aparan 15 yaşlı idmançımız Həsən Babayev 81 kiloqram çəki dərəcəsində 195 kiloqramı ram edərək dördüncü olub. Tərmenxan Babayev də eyni nəticəni göstərib.

**✍ Ceyhun MƏMMƏDOV**

# Növbəti əmək yarmarkası



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası istiqamətində aktiv məşğulluq tədbirlərinin təşkili də diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən muxtar respublikada işaxtaran şəxslərin məşğulluğunun təmin olunması məqsədilə əmək yarmarkaları keçirilir. Növbəti əmək yarmarkası Babək rayonunda təşkil olunub.

Tədbirdə çıxış edənlər bildiriblər ki, muxtar respublikada işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradılıb, sosial qayğıya ehtiyacı olan ailələrin özünüməşğulluq imkanları artırılıb. Dövlət proqramının icrası ilə əlaqədar ilin əvvəlində muxtar respublikanın əmək bazarı təhlil edilib, əldə edilən nəticələr əsasında aktiv məşğulluq tədbirlərinin icrası diqqətdə saxlanılıb. Qeyd olunub ki, hər rüb təşkil edilən əmək yarmarkaları da bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Hərbi xidmətdən yeni tərxis olunmuş gənclərin də iştirak etdiyi əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 51 müəssisədən 232 boş iş yeri təqdim olunub. Nəticədə, 32 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin edilib, 13 nəfərin özünüməşğulluq proqramına, 6 nəfərin isə peşə hazırlığı kurslarına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***


## Elan

“Mehmanxana” Açıq Tipli Səhmdar Cəmiyyətinin idarə heyəti cəmiyyətin üzvlərinin diqqətinə çatdırır ki, 2021-ci ildə görülmüş işlər və 2022-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçiriləcəkdir. İclas mehmanxananın inzibati binasında keçiriləcəkdir.

### İtmişdir

Bayramova Yeganə Qadir qızının adına Naxçıvan Şəhər Peşə Liseyi tərəfindən verilmiş AS-009560 seriya nömrəli kompüter istifadəçisi sertifikatı itdiyindən etibarsız sayılır.

***

Rəhimov Qafar Qaraş oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Həsənova Şahinə Abdulla qızının adına olan 0200769992 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Adıgözəlov İnşallah Yasin oğlunun adına olan avtomobilin 71BB406 nömrəsi itdiyindən etibarsız sayılır.

***

Həsənov Möhübbət Abdulәli oğlunun adına olan avtomobilin 75BA414 nömrəsi itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 321